# “İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaedənlər tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması ilə bağlı” elektron xidmətinin

## İstifadəçi təlimatı

**“İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaedənlər tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması ilə bağlı”** ərizənin təqdim olunması məqsədilə Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsinə (https://new.e-taxes.gov.az/etaxes/) giriş edib, aşağıda qeyd olunan identifikasiya vasitələrindən istifadə etməklə elektron kabinetə daxil olmaq lazımdır:

- Asan İmza;

- SİMA İmza;

- SİMA Token.

Elektron kabinetə daxil olduqdan sonra açılan əsas səhifədə **“Ərizələr”** modulu seçilir.




Növbəti mərhələdə “İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaedənlər tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması ilə bağlı” ərizənin təqdim olunması ilə bağlı “Yeni ərizə” xanasına müraciətə

uyğun ərizənin adı yazılaraq axtarış nəticəsində ekranda adı əks olunan ərizə forması və yaxud **“Hamısına bax”** düyməsi vasitəsilə müvafiq ərizə seçilir.




Əgər istifadəçi tərəfindən daha əvvəl bu ərizə forması doldurularaq qaralamada saxlanılmışdırsa, o zaman ekranda açılan pəncərədə əvvəl qaralaması yaradılmış ərizə formaları əks olunur və seçim imkanı verilir. İstifadəçi əvvəllər qaralaması yaradılmış ərizə forması üzrə davam etmək istədikdə ekrandakı qaralaması olan ərizə forması seçilir və bu zaman aktivləşən **“Davam et”** düyməsi sıxılır. Bu zaman yeni pəncərədə əvvəl doldurulmuş ərizə forması açılır və düzəliş imkanı mümkün olur.




Müvafiq ərizə forması üzrə yeni ərizə formasını yaratmaq istədikdə isə **“Yeni ərizə yarat”** düyməsi sıxılır.




Açılmış pəncərədə subsidiyanın verilməsinin aid olduğu dövr üzrə müvafiq məlumatlar (il və rüb) daxil etdikdən sonra aktivləşən “**Davam et”** düyməsi sıxılır.




Ərizə formasında əks olunan **“Siyahıya qayıt”** düyməsini sıxdıqda açılan pəncərədəki **“İmtina”** düyməsini sıxmaqla ərizə formasının doldurulmasına qaldığı yerdən davam etmək, **“Xeyr, silinsin”** düyməsini sıxmaqla yaradılmış ərizə formasını silmək, **“Bəli, yadda saxlanılsın”** düyməsini sıxmaqla yaradılmış ərizə formasının yadda saxlanılması mümkün olur.




"Xeyr, silinsin" düyməsi seçildikdə açılan "Xidmətin yekunlaşdırılması" pəncərəsindəki müvafiq məlumatlar doldurulduqdan sonra aktivləşən **"Göndər"** düyməsi sıxılır.






Açılan növbəti ekranda vergi orqanı və vergi ödəyicisi barədə məlumatlar avtomatik olaraq əks etdirilir.




Növbəti mərhələdə **“Vəsaitin köçürülməsi nəzərdə tutulan aktiv bank hesabı”** xanasında müvafiq bank hesabı seçilir.



Daha sonra "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığorta olunanların cəmi sayı" xanasında işçi sayı qeyd olunur.




"İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığorta olunanlar barədə məlumat"ların daxil edilməsi məqsədi ilə "Əlavə et" düyməsi seçilir.



Açılan pəncərədə sığorta olunan şəxsin FİN məlumatları daxil edilərək “Axtar” düyməsi sıxılır və nəticələr siyahı şəklində ekranda əks olunur. Siyahıda göstərilən sığorta olunanların ayrı-ayrılıqda, həmçinin “Hamısını seç” seçim xanası vasitəsilə bütövlükdə seçilməsi mümkündür.







Seçim aparıldıqdan sonra aktivləşən “Əlavə et” düyməsi sıxılır.




Əgər siyahıda olmayan digər sığorta olunanların ərizəyə əlavə edilməsi zərurəti yaranarsa, yenidən “Əlavə et” düyməsi seçilərək müvafiq məlumatlar daxil edilir.




Siyahıda göstərilən sığorta olunanlardan hər hansı birini “Sil” düyməsi ilə, bütün sığorta olunanlar barədə məlumatları isə “Hamısını sil” düyməsi vasitəsilə silmək mümkündür.




Daha sonra ərizənin göndərilməsi üçün aktivləşən "**İmzala və göndər**" düyməsi, qaralamada saxlanılması və daha sonra göndərilməsi üçün "**Qaralamada saxla və çıx**" düyməsi sıxılır.



“**İmzala və göndər**” düyməsi sıxıldıqdan sonra müvafiq ərizə forması imzalanaraq göndərilə və ya bu əməliyyatdan imtina edilə bilər.







“**İmzala və göndər**” düyməsi sıxıldıqda açılan pəncərədə “**İmtina**” düyməsi seçildikdə istifadəçi yenidən əvvəlki pəncərəyə (ərizə formasının doldurulması pəncərəsinə) geri qayıda bilər.



“**İmtina**” düyməsi sıxıldıqdan sonra ekranda əks olunan “**Sil**” düyməsi sıxılmaqla ərizə forması silinə və ya əksinə bu əməliyyatdan imtina edilə bilər.







Ərizə imzalanaraq göndərildikdən sonra yeni pəncərədə istifadəçi tərəfindən doldurulmuş məlumatlara uyğun ərizə forması və müvafiq ərizənin göndərilməsi barədə “Bildiriş” ekranda əks olunur. Həmin pəncərədə **“Çap”** düyməsi vasitəsi ilə ərizə çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər. **“Bağla”** düyməsi isə pəncərəni bağlamaq üçün nəzərdə tutulmuşdur.





## Ödənilmiş məcburi dövlət sosial sığorta (MDSS) haqlarının subsidiyalaşdırılmasının həyata keçirilməsi barədə məlumatlar

İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaolunanların cəmi sayı 3

## İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaolunanlar barədə məlumat

| № | Ad Soyad Ata adı | FİN kodu | Hesablanmış MDSS haqqının məbləği (sığortaedənin vəsaiti üzrə hesablanmış) | MDSS haqqı üzrə ödənilməli subsidiya məbləği |
|---|---|---|---|---|
| 1 | HƏMZƏYEV FƏQAN ƏFQAN OĞLU | 7T4M46D | 942 | 942 |
| 2 | ABDİNLİ MURAD KAMİL OĞLU | 7EPLBGM | 686 | 686 |
| 3 | MİKAYILOV SƏXAVƏT LAÇIN OĞLU | 56S1TZP | 942 | 942 |
| CƏMİ | | | | 2570.00 |

Bağla

İstifadəçi tərəfindən göndərilən “İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaedənlər tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması ilə bağlı” ərizə onun “Ərizələr” modulundakı “Göndərilənlər” qovluğunda əks olunur və bu hissədə ərizənin statusu barədə məlumat qeyd olunur.



Eyni zamanda bu hissədən də **"Çap"** düyməsi vasitəsi ilə ərizə çap edilə, **"Endir"** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər.

